2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 oktyabr 2015-ci il tarixli 57 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 10 oktyabr 2015-ci il

2015-ci il oktyabrın 8-də 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Sadıxlı Nüşabə Ağabala qızı Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, onun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və onun deputatlığa namizəd kimi qeydə alınmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Namizəd N.A.Sadıxlı müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş, həmin dairənin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin dairə seçki komissiyası onun səlahiyyətli nümayəndəsinə imzaların yoxlanılması barədə məlumat verməmiş, imzaların yoxlanılmasında iştirakı təmin edilməmiş, nəticədə əsassız olaraq namizəd kimi qeydə alınmasından imtina edilmişdir. Eyni zamanda dairə seçki komissiyası imzaların düzgünlüyünün yoxlanılmasının yekununa dair rəylərin, protokolun və yoxlamanın nəticəsi barədə cədvəlin surətini də səlahiyyətli nümayəndəyə verməmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah edilmiş, Müsavat Partiyasının səlahiyyətli nümayəndəsinin iclasda iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən 7 oktyabr 2015-ci il tarixli 23/59 saylı qərarında namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş N.A.Sadıxlının namizəd kimi qeydə alınmasından imtinanın əsası kimi namizəd tərəfindən təqdim

edilmiş 500 seçici imzasından etibarlı imzaların sayının namizədin qeydə alınması üçün yetərli olmaması göstərilmişdir.

N.A.Sadıxlının namizəd kimi qeydə alınması üçün Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Əhmədli Dadaş Rəşid oğlu namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələrini və digər seçki sənədlərini 1 oktyabr 2015-ci ildə dairə seçki komissiyasına təqdim etdikdən sonra dairə seçki komissiyasının sədri tərəfindən sənədlərə ilkin baxış keçirilərkən diqqət çəkən pozuntuları və digər məlumatlardakı səhvləri aradan qaldırmaq üçün ona həmin sənədlərdə düzəliş edərək komissiyaya təqdim etməyi məsləhət görmüşdür, lakin səlahiyyətli nümayəndə həmin təklifi qəbul etməmişdir.

Dairə seçki komissiyası tərəfindən təqdim edilmiş sübutlardan görünür ki, deputatlığa namizəd N.A.Sadıxlı və Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi R.Əmiraslanov 6 oktyabr 2015-ci ildə namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və digər seçki sənədlərindəki məlumatların düzgünlüyünün işçi qrupu tərəfindən yoxlanılması prosesində iştirak etmişlər. Eyni zamanda dairə seçki komissiyasının iclasının keçiriləcəyi vaxt barədə onlara məlumat verilmiş və iclasda iştirak etməyə dəvət edilmiş, 7 oktyabr 2015-ci ildə keçirilən iclasda yalnız Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Rəhmanov Şamin iştirak etmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən tərtib edilmiş rəy və protokoldan görünür ki, namizədin müdafiəsi üçün toplanılmış seçici imzasından seçicilər haqqında məlumatlar qeyri-düzgün göstərildiyinə görə 147-si etibarsız hesab edilmiş, 9 imza isə seçki dairəsinin ərazisindən kənarda toplanmışdır. Beləliklə, etibarlı seçici imzalarının sayı yetərli olmadığından N.A.Sadıxlı deputatlığa namizəd kimi qeydə alınmamalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, namizədin qeydə alınmasından imtinaya dair 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli 23/59 saylı qərarı qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədliyi 29 saylı Səbail seçki dairəsi üzrə Müsavat Partiyası tərəfindən irəli sürülmüş Sadıxlı Nüşabə Ağabala qızının 8 oktyabr 2015-ci il tarixli 57 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli 23/59 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva